"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

# Bakı – Azərbaycan Respublikası
# 31 dekabr 2021-ci il tarixdə bitən il üzrə
# Müstəqil Auditor Rəyi və Maliyyə Hesabatları

MÜNDƏRİCAT

<u>Səhifə</u>


**Rəhbərliyin Hesabatı 2–3**

**Maliyyə vəziyyəti haqqında Hesabat 4**

**Məcmu gəlirlər haqqında Hesabat 5**

**Kapitalda dəyişikliklər haqqında Hesabat 6**

**Pul vəsaitlərinin hərəkəti haqqında Hesabat 7**

**Maliyyə hesabatlarına dair Qeydlər 8-19**


**Bakı – Azərbaycan Respublikası**

## "REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Rəhbərliyin Hesabatı**

**Rəhbərlik** 31 dekabr 2021-ci il tarixdə bitən il üzrə "REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ-nin (VÖEN: 1303639731) hesabatını və audit olunmuş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.

**Əsas Fəaliyyət:**

Müəssisənin əsas fəaliyyəti: KREDİTİN VERİLMƏSİ

**Biznes Əməliyyatlarının İcmalı və Fəaliyyətin Gələcək İnkişaf Perspektivləri**

Müəssisənin əsas fəaliyyətindən gəliri 31 dekabr 2021-ci il tarixdə bitən il üzrə **171402.25** AZN olmuşdur. 31 dekabr 2021-ci il tarixə ümumi mənfəət **52270.98** AZN olmuşdur və keçmiş illərin zərərinin **52270.98** AZN-lik hissəsi bu ilin mənfəəti hesabına kompensasiya edilmişdir . Nəticədə 31 dekabr 2021-ci il tarixə ümumi mənfəət **0.00** AZN olmuşdur. Cəmiyyətin rəhbəri gələcək ilin nəticələri üçün nikbindir və Müəssisənin fəaliyyətini təkmilləşdirməyi ümid edirlər.

| | 2021 (AZN) | 2020 (AZN) |
|---|---|---|
| **Ümumi Gəlir** | **171 402.25** | **35 179.51** |
| **Ümumi mənfəət (zərər)** | **52 270.98** | **- 3 580.49** |
| **Mənfəətlik dərəcəsi %** | **0.00%** | **0.00%** |
| **Xalis mənfəət/ (zərər)** | **52 270.98** | **- 3 580.49** |
| **Xalis mənfəət/ (zərər) %** | **0.00%** | **0.00%** |

Müəssisə 2021-ci ili **52270.98**AZN mənfəətlə başa vurmuşdur və keçmiş illərin zərərinin **52270.98** AZN-lik hissəsi bu ilin mənfəəti hesabına kompensasiya edilmişdir

**Risklərin idarə olunması və daxili nəzarət sistemi:**

Cəmiyyət davamlılığa, məşğulluğa və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsinin strukturu riskləri müəyyən edir, qiymətləndirir, idarə edir və risklər haqqında ardıcıl və etibarlı əsasda hesabat verir. Əsas risklərə kredit, bazar (likvidlik, faiz dərəcəsi və xarici valyuta məzənnələri) və əməliyyat riskləri daxildir.

Rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlısəmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Yuxarıdakıları nəzərə alaraq, Cəmiyyət idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

**Fəaliyyətin fasiləsizliyi:**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən menecment Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyətini qiymətləndirilmişdir. Menecment Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən

fəaliyyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıracaq hər hansı sübutla qarşılaşmamışdır.

**Kreditor borclarının ödənilməsi siyasəti:**

Cəmiyyət təchizatçılarla razılaşdırılmış müddət və şərtlərlə borcun ödənilməsi siyasətini həyata keçirir. Siyasətin məqsədi standart ödəniş sisteminin tətbiq edilməsidir.

**Balans tarixindən sonrakı hadisələr:**

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Cəmiyyətin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və ya hadisə baş verməmişdir.

**Torpaq, tikili və avadanlıqlar:**

Torpaq, tikili və avadanlıqlar üzrə hərəkət maliyyə hesabatlarında göstərilmişdir.

**Təsisçi:**

Nizamnamə kapitalının dəyəri 500 100.00 manat (Beş yüz min bir yüz manat 00 qəpik) məbləğində formalaşmış və təsdiq edilmişdir.

31 dekabr 2021 - ci il tarixdə bitən il üzrə Cəmiyyətin nizamnamə kapitalında təsisçilərin payı faiz nisbəti ilə aşağıdakı kimidir.

| | |
|---|---|
| ƏLİYEV ƏLİ HÜSEYN OĞLU | - 1667 pay |
| TAĞIYEVA RAYA QULAM QIZI | - 1667 pay |
| BƏHRƏMOV NAHİD OKTAY OĞLU | - 1667 pay |

**Rəhbərliyin məsuliyyəti**

Azərbaycan Respublikası Mülki qanunvericiliyi Rəhbərlikdən hər bir maliyyə ili üçün Cəmiyyətin ümumi vəziyyətini və maliyyə ili üçün mənfəət və zərərini düzgün və ədalətli şəkildə təqdim etmək imkanı verən maliyyə hesabatlarını hazırlamağı tələb edir.

Nəzərdən keçirilən il üzrə audit olunmuş maliyyə hesabatları dövlət qanunlarına uyğun olaraq hesablanmışdır. Rəhbərlik təsdiq edir ki, Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman lazımi dəqiqliklə açıqlaya bilən və onların maliyyə hesabatlarının müvafiq qanunvericiliyin tələblərinə uyğun olmasına təmin edən uyğun və adekvat mühasibat müxabirləşməsinin doğruluğuna əhəmiyyətli dərəcədə diqqət yetirilib. Rəhbərlik həmçinin təsdiq edir ki,maliyyə hesabatlarının ədalətli şəkildə əks etdirməsi və Cəmiyyətin maliyyə vəziyyətini və onun əməliyyatlarının nəticələrini əsaslandırılmış şəkildə təqdim edilməsi məqsədilə uyğun uçot siyasəti seçilmiş və ardıcıllıqla tətbiq edilmişdir.

**Rəhbər**

AZƏRBAYCAN RESPUBLİKASI Bank olmayan kredit təşkilatı REGİONAL Non banking credit institution AZERBAIJAN REPUBLIC

**CƏBRAYILOV BƏŞİR ELDAR OĞLU**

"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə vəziyyəti haqqında Hesabat, 31 dekabr 2021-ci il tarixinə**

*(Azərbaycan manatı ilə)*

| | 2021 | 2020 |
|---|---|---|
| **Aktivlər** | - | - |
| **Uzunmüddətli aktivlər** | - | - |
| Qeyri-maddi aktivlər | 25 189.32 | 27 988.13 |
| Torpaq, tikili, qurğular | - | - |
| Maşınlar və avadanlıq | 641.84 | - |
| Nəqliyyat vasitələri | - | - |
| Digər əsas vəsaitlər | - | - |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | - | - |
| Hesablama texnikası | - | - |
| Sair uzunmüddətli aktivlər | - | - |
| **Cəmi uzunmüddətli aktivlər** | **25 831.16** | **27 988.13** |
| **Qısamüddətli aktivlər** | - | - |
| **Ehtiyatlar** | - | - |
| Debitor borcları | 774 809.85 | 153 490.00 |
| Sair qısa müddətli aktivlər | - | - |
| Gələcək dövrün xərcləri | - | - |
| Pul vəsaitləri və onun ekvivalentləri | 386 619.24 | 253 935.28 |
| Digər aktivlər | 28 861.43 | 9 489.72 |
| **Cəmi qısamüddətli aktivlər** | **1 190 290.52** | **416 915.00** |
| **Cəmi aktivlər** | **1 216 121.68** | **444 903.13** |
| **Kapital və öhdəliklər** | - | - |
| **Kapital** | - | - |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 500 100.00 | 500 100.00 |
| Kapital ehtiyatları | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | - 69 160.00 |
| **Cəmi kapital** | **500 100.00** | **430 940.00** |
| **Uzunmüddətli öhdəliklər** | - | - |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | 500 761.38 | - |
| Sair uzunmüddətli öhdəliklər | - | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **500 761.38** | **0.00** |
| **Qısamüddətli öhdəliklər** | - | - |
| Alınmış avanslar | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | - | - |
| Sair kreditor borcları | 212 941.89 | - |
| Digər öhdəliklər | 2 318.41 | 13 963.13 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **215 260.30** | **13 963.13** |
| **Cəmi öhdəliklər** | **716 021.68** | **13 963.13** |
| **Cəmi kapital və öhdəliklər** | **1 216 121.68** | **444 903.13** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.**

AZƏRBAYCAN RESPUBLİKASI Bank olmayan kredit təşkilatı REGİONAL Non banking credit institution AZERBAIJAN REPUBLIC

*Direktor:*

*31.03.2022-ci il*

*Baş mühasib:*

"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Məcmu gəlirlər haqqında hesabat, 31 dekabr 2021-ci il tarixinə**

*(Azərbaycan manatı ilə)*

| Qeyd | 2021 | 2020 |
|---|---|---|
| *- Müştərilərə verilmiş kreditlər üzrə faiz gəlirləri* | *114 936.43* | *29 283.43* |
| *- Maliyyə müəssisələrindəki depozitlər üzrə gəlirlər* | - | - |
| *- Digər faiz gəlirləri* | *20 671.18* | |
| **Faiz gəlirləri** | **114 936.43** | **29 283.43** |
| **Faiz xərcləri** | - | - |
| **Xalis faiz gəliri** | **143954.61** | **29 283.43** |
| Kreditlər üzrə yaradılan ehtiyat | - | - |
| **Kreditlər üzrə ehtiyatlardan sonra xalis faiz gəlirləri** | - | - |
| *- Xalis haqq və komissiya gəlirləri* | - | - |
| *- Xarici valyuta əməliyyatlarından xalis gəlirlər/(zərərlər)* | - | - |
| *- Digər gəlirlər* | *35 794.64* | *5 896.08* |
| **Qeyri-faiz gəlirləri** | **35 794.64** | **5 896.08** |
| *- İşçi heyəti üzrə xərclər* | *- 34 008.38* | *- 16 412.66* |
| *- Digər inzibati və əməliyyat xərcləri* | *- 9 600.30* | *- 1 654.73* |
| *- Köhnəlmə və amortizasiya* | *- 2 805.83* | *- 3 109.79* |
| *- İcarə haqqları* | *- 12 600.00* | *- 6 430.00* |
| *- Digər xərclər* | *- 26 323.85* | *- 11 152.82* |
| **Xalis qeyri-faiz xərcləri** | **- 85 338.36** | **- 38 760.00** |
| *- Borca görə faizlər və onunla bağlı olan xərclər* | *- 33 792.91* | |
| **Xalis faiz xərcləri** | *- 33 792.91* | |
| Vergi tutmadan əvvəlki mənfəət/(zərər) | *52 270.98* | - 3 580.49 |
| Mənfəət vergisi-güzəşt/(xərc) | - | - |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | *52 270.98* | |
| **Xalis mənfəət/(zərər)** | **0.00** | **- 3 580.49** |
| Digər məcmu gəlir/(zərər) | - | - |
| **Cəmi məcmu mənfəət/ (zərər)** | **0.00** | **- 3 580.49** |

AZƏRBAYCAN RESPUBLİKASI Bank olmayan kredit təşkilatı REGİONAL Non banking credit institution AZERBAIJAN REPUBLIC

***Direktor:***
***31.03.2022-ci il***

***Baş mühasib:***

"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI, 31 dekabr 2021-ci il tarixdə bitmiş il üzrə**

*Azərbaycan Manatı ilə*

| | **Nizamnamə Kapitalı** | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **Cəmi kapital** |
|---|---|---|---|
| **01.01.2020-ci il tarixinə balans** | **300 000.00** | **- 66 281.00** | **233 719.00** |
| **Kapital qoyuluşu** | 200 100.00 | - | **200 100.00** |
| **Hesablanmış vergilər** | - | - | - |
| **Hesabat dövrünün maliyyə nəticəsi** | - | - 3 580.49 | - |
| **01.01.2021-ci il tarixinə balans** | **500 100.00** | **- 69 861.49** | **430 238.51** |
| **Kapital qoyuluşu** | - | - | - |
| **Hesablanmış vergilər** | - | - | - |
| **Hesabat dövrünün maliyyə nəticəsi** | - | **52 270.98** | - |
| **31.12.2021-ci il tarixinə kapitalın qalığı** | **430 238.51** | **52 270.98** | **482509.49** |

***Direktor:***

AZƏRBAYCAN RESPUBLİKASI Bank olmayan kredit təşkilatı REGİONAL Non banking credit institution AZERBAIJAN REPUBLIC

***Baş mühasib:***

***31.03.2022-ci il***

"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI - BİRBAŞA METODLA

| Azərbaycan Manatı ilə | 2021 | 2020 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | - | - |
| Hesabat dövründə mənfəət /zərər | 52 270.98 | - 3 580.49 |
| Köhnəlmə və amortizasiya - torpaq, tikili və avadanlıqlar | 7.02 | 0.00 |
| Köhnəlmə və amortizasiya - qeyri-maddi aktivlər | 2 798.81 | 3 109.79 |
| Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişiklikdən əvvəl əməliyyat fəaliyyətindən əldə edilən pul vəsaitləri** | **55 076.81** | **- 470.70** |
| Müştərilərə verilmiş kreditlər artım/azalma | 768 590.08 | - 95 760.00 |
| Digər aktivlərdə artım/azalma | - 197 059.24 | - 20 521.37 |
| Maliyyə institutları qarşısında öhdəliklər | - | - |
| Digər öhdəliklər üzrə artım/azalma | -11 644.72 | 76 551.00 |
| Cari mənfəət vergisi üzrə öhdəliklər | 0.00 | - 17 100.65 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **559886.12** | **- 57 301.72** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | - | - |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi | - | - |
| Nəqliyyat vasitələri | - | - |
| Digər əsas vəsaitlər | 648.86 | - |
| Banklarda yerləşdirilmiş depozitlər | - | |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **648.86** | **-** |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | - | - |
| Kapital qoyuluşu | - | 200 100.00 |
| Qaytarılmış borclar | - | - |
| Maliyyə yardımı | - | - |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **-** | **200 100.00** |
| **İl ərzində pul vəsaitlərinin artması(azalması)** | **615 611.79** | **142 798.28** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | **253 935.28** | **111 137.00** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna qalığı** | **869 547.07** | **253 935.28** |

AZƏRBAYCAN RESPUBLİKASI Bank olmayan kredit təşkilatı REGİONAL Non banking credit institution AZERBAIJAN REPUBLIC

*Direktor:*

*Baş mühasib:*

*31.03.2022-ci il*

"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

Maliyyə hesabatlarına dair qeydlər, 31 dekabr 2021-ci il tarixdə bitən il üzrə

**1. Hüquqi vəziyyət və biznes fəaliyyəti**

1. 1 ***"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ*** "18" Aprel 2014-ci il tarixdə 1303639731 saylı qeydiyyat nömrəsi ilə (VÖEN) Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xdməti yanında Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinə dövlət qeydiyyatına alınmışdır.

1. 2. Cəmiyyətin əsas fəaliyyəti – KREDİTİN VERİLMƏSİ

1. 3 ***"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ***-nin hüquqi ünvanı aşağıdakı kimidir:

**AZ1065, BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, TBİLİSİ PR, ev.41, m.16A**

**2. Səhmdar kapitalı**

Nizamnamə kapitalının dəyəri 500 100.00 manat (Beş yüz min bir yüz manat 00 qəpik) məbləğində formalaşmış və təsdiq edilmişdir.

**3.Mühüm uçot siyasətlərinin xülasəsi**

**Hazırlanmanın əsasları:**

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır; maliyyə hesabatları yeni Azərbaycan manatı ilə (AZN) təqdim edilmişdir.

**Uyğunluğun təsdiqi**

Cəmiyyətin maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq hazırlanmışdır.

**a) Mühüm uçot qiymətləndirmələri, ehtimalları və fərziyyələri**

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən hesabat tarixinə hesabatda əks olunmuş gəlirlərə, xərclərə, aktivlər və öhdəliklərə və şərti öhdəliklərin açıqlanmasına təsir edən qiymətləndirmələr, ehtimallar və fərziyyələri formalaşdırmağı tələb edir. Lakin bu qiymətləndirmələr və ehtimalların qeyri-dəqiqliyi gələcəkdə aktiv və ya öhdəliklərin balans dəyərində əhəmiyyətli düzəlişlər tələb edə biləcək nəticələrə gətirib çıxara bilər.

***Qiymətləndirmələr***

Cəmiyyətin uçot siyasətlərinin tətbiqi prosesində rəhbərlik maliyyə hesablarında tanınmış məbləğlərə çox əhəmiyyətli təsiri olan aşağıdakı qiymətlədirmələri həyata keçirmişdir.

***Əməliyyat gəliri***

Rəhbərlik belə hesab edir ki, gəlirin tanınması üçün əsas amil BMUS 18-də göstərilmişdir: Gəlir əməliyyatla bağlı iqtisadi səmərənin daxil olması ehtimal olunduqda tanınır. Müştəri tərəfindən öhdəlik qəbul edilərsə, iqtisadi səmərə artıq ötürülmüşdür və belə şəraitdə gəlirin tanınması mümkündür.

*Ehtimal və fərziyyələr*

Növbəti maliyyə ili çərçivəsində, balans hesabatı tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli dəyişikliyə gətirib çıxara biləcək, gələcəyi əhatə edən və ehtimallardakı qeyri-müəyyənliyin əhəmiyyətli mənbəyini təşkil edən əsas fərziyyələr aşağıdakılardır:

***Torpaq, tikili və avadanlıqlar***

Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır.

***Şübhəli borclar üzrə ehtiyatlar***

Şübhəli borclar üzrə ehtiyatlar debitor borclarını onların geri qaytarılmaması hallarının nəzərə alınması ilə çox göstərilməsindən (şişirdilməməsindən) əmin olmaq üçün bir sıra amillərə əsaslanaraq müəyyən edilir. Ümüdsüz borclar üzrə ehtiyatlar bütün müştərilər üzrə müxtəlif amillər əsasında yaradılır. Bu amillərə debitor borclarının ümumi keyfiyyəti və onların müddətlər üzrə bölgüsü və müştərinin maliyyə vəziyyətinin kredit cəhətdən qiymətləndirilməsi daxildir. Həmçinin, şirkət müştərinin özünün öhdəliklərini ödəmə qabiliyyətinin olmamasını müəyyən edərsə, məsələn, müştərinin əməliyyat nəticələrində və maliyyə vəziyyətində pisləşmə müşahidə olunarsa, bu zaman həmin müşahidələr üzrə xüsusi ehtiyatlar yaradılır.

**b) Ehtiyatlar**

Ehtiyatlar ilkin dəyəri və mümkün xalis satış dəyərindən daha kiçik olan dəyərlə FİFO metodundan istifadə etməklə uçota alınır. Ehtiyatların ilkin dəyərinə onların alınması, emal xərcləri və ehtiyatların mövcud yerə və vəziyyətə gətirilməsi üçün çəkilən digər xərclər daxildir. Xalis satış dəyəri nəzərdə tutulan satış qiymətindən işin tamamlanmasına ehtimal edilən xərcləri və satışı həyata keçirmək üçün zəruri xərcləri çıxmaqla müəyyən olunur.

**c) Torpaq, tikili və avadanlıqlar**

Torpaq, tikili və avadanlıqlar ilkin dəyərlə, yığılmış amortizasiya və müəyyən olunmuş qiymətdəndüşmə üzrə zərərlər çıxılmaqla uçota alınır. İlkin dəyərə alış qiyməti, rüsumlar, tariflər və onların müəssisə rəhbərliyinin istədiyi vəziyyətə və lazımi istismar yerinə gətirilməsi ilə bağlı birbaşa xərclər daxildir. Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddətləri üzrə azalan qalıq dəyəri metodu ilə amortizasiya olunur:

| | |
|---|---|
| Binalar | 7% |
| Maşın və avadanlıqlar | 20% |
| Ofis avandanlıqları | 20% |
| Nəqliyyat vasitələri | 25% |

**d) Qeyri-maddi aktivlər**

**İlkin dəyər modeli**

Qeyri-maddi aktivlər ilkin dəyərlə, yığılmış amortizasiya və hər hansı qiymətdən düşmə üzrə zərər çıxılmaqla uçota alınır. Faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri maddi aktivlər istisna olmaqla bütün digər qeyri-maddi aktivlərin amortizasiyası faydalı istifadə müddətləri üzrə düz xətt metodundan

istifadə etməklə Mənfəət və Zərər haqqında Hesabatda əks olunur. Kapitallaşdırılmış qeyri-maddi aktivlər üzrə sonrakı məsrəflər yalnız aid olduğu xüsusi aktivdə əks olunan gələcək iqtisadi səmərəni artırarsa kapitallaşdırılır.

**e)Aktivlərin qiymətdən düşməsi**

Torpaq, tikili və avadanlıqların əgər hadisə və şəraitdəki dəyişikliklər göstərsə ki, aktivin balans dəyəri bərpa edilə bilinmir, o zaman qiymətdən düşməsinin, olub-olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Aktivin balans dəyəri onun bərpa olunan dəyərindən çox olarsa, o zaman Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə üzrə zərər tanınır.

Hər bir hesabat tarixində aktivlər onların qiymətdən düşə biləcək hər hansı göstəricisinin olub-olmamasını müəyyən etmək üçün qiymətləndirilir. Əgər belə göstərici mövcuddursa, həmin aktivin ehtimal edilən bərpa dəyəri müəyyən olunur, Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə üzrə zərər tanınır.

**f) Vergi qoyma**

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir. Vergi tutulan mənfəət "Mənfəət və Zərər haqqında" hesabatda göstərilən uçot mənfəətindən fərqlənir, çünki uçot mənfəətinə gələcək illərdə vergiyə cəlb olunacaq və ya çıxarılacaq gəlir və ya xərc maddələrini, həmçinin heç vaxt vergiyə cəlb olunmayacaq və ya əvəzləşdirilməyəcək maddələr daxildir. Cəmiyyətin cari vergi xərcləri balans hesabatı tarixinə təyin olunmuş vergi dərəcəsi ilə hesablanmışdır.

Təxirə salınmış vergi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergi tutulan mənfəətin hesablanması üçün istifadə edilən vergi bazası arasındakı fərq üzrə ödənilməli və ya bərpa edilən vergi məbləğidir və vergi bazası müvafiq vergi tutulan mənfəətin hesablanması üçün istifadə edilmişdir. Təxirə salınmış vergi öhdəlikləri ümumilikdə bütün vergi tutulan müvəqqəti fərqlər üçün və təxirə salınmış vergi aktivləri isə yalnız çıxarılan müvəqqəti fərqlərlə bağlı gələcəkdə bərpa olunmalı vergiyə cəlb olunan mənfəət səviyyəsində tanınır. Belə aktiv və öhdəliklər müvəqqəti fərqlər vergi tutulan mənfəətin və uçot mənfəətinə təsir göstərən digər aktiv və öhdəliklərin ilkin tanınmasından yaranarsa tanınmır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin müvafiq vergi tələblərinə tam olaraq riayət etdiyindən maliyyə hesabatlarında müvəqqəti fərqlər yaranmır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq, Cəmiyyətin fəaliyyətində tətbiq edilən müxtəlif vergi növləri vardır. Bu vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi Mənfəət və Zərər haqqında hesabatda əks olunmuşdur.

**g) Maliyyə icarəsi**

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Mülkiyyət hüququ həm keçə, həm də keçməyə bilər. İcarənin maliyyə və əməliyyat icarəsi olması icarə müqaviləsinin formasından deyil əməliyyatın məzmunundan asılıdır.

İcarə aşağıdakı şərtlər yerinə yetirildiyi halda, maliyyə icarəsi kimi təsnifləşdirilmişdir.

- ✔ İcarə müqaviləsinin sonunda icarəyə verilmiş aktiv üzrə mülkiyyət hüququ icarəçiyə keçir;

- İcarəçinin, aktivi ədalətli dəyərindən əhəmiyyətli dərəcə aşağı olacağı gözlənilən qiymətə almaq hüququ həmin hüququn reallaşma tarixinə mövcuddur və icarəçinin həmin hüquqdan istifadə edəcəyini icarə müddətinin əvvəlində əsaslandırılmış şəkildə bildirmək mümkündür;
- İcarə müddəti, hətta əgər mülkiyyət hüququ ötürülmürsə belə, aktivin faydalı istifadə müddətinin əhəmiyyətli dərəcədə böyük hissəsini təşkil edir.
- İcarə şərtlərinin qəbul edilməsi tarixində minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyəri, icarəyə verilən aktivin heç olmasa ədalətli dəyərinə bərabərdir;
- İcarədə olan aktiv elə səciyyəvi xüsusiyyətə malikdir ki, o xüsusi modifikasiya edilmədən, yalnız icarəçi bu aktivdən istifadə edə bilər.

İcarə müqaviləsinin başlanması tarixində Cəmiyyət icarədar kimi maliyyə icarəsini balansda müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məbləğində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onların yarandığı dövrdə xərc kimi tanınır. Maliyyə icarəsinə götürülmüş aktivlər üzrə amortizasiya siyasəti mülkiyyətdə olan torpaq, tikili və avadanlıqların amortizasiyası siyasəti ilə eynidir.

Maliyyə icarəsi ödənişlərinin faiz hissəsi aid olduğu dövrdə mənfəət və zərər haqqında hesabatda əks olunur.

**h) Gəlirin tanınması**

Məhsulların satışından gəlir aşağıdakı şərtlər yerinə yetirilərsə tanına bilər:

I. Müəssisə məhsulların mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risk və mükafatları alıcıya ötürmüşdür;

II. Müəssisə mülkiyyət hüququ ilə bağlı idarəetmədə artıq iştirak etmir və satılmış mallara faktiki nəzarəti saxlamır;

III. Gəlir məbləği düzgün qiymətləndirilə bilinir;

IV. Müəssisəyə əməliyyatla bağlı iqtisadi səmərənin daxil olacağı ehtimal olunur;

V. Əməliyyatla bağlı çəkilmiş və ya çəkilməli xərcləri düzgün qiymətləndirmək mümkündür.

**i) Maliyyə xərcləri**

Maliyyə xərcləri mənfəət və zərər haqqında hesabatda onların yarandığı dövr üzrə tanınır.

**j) Əmək fəaliyyətinin başa çatmasından sonra mükafatlar**

Balans tarixinə əmək fəaliyyətinin başa çatmasına görə mükafatlar hesabat tarixinə işçilərin iş stajına cari və cari əsas əmək haqqına əsasən Azərbaycan Respublikası Əmək qanunvericiliyinə uyğun olaraq hesablanır. İşdən çıxma üzrə müavinətlər yarandığı zaman xərc kimi tanınır.

**k) Qiymətləndirilmiş ehtiyatlar**

Qiymətləndirilmiş ehtiyatlar keçmiş hadisələrin nəticəsi olan öhdəliklərə (hüquqi və konstruktiv) sahib olduqda öhdəliyin yerin yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların tələb olunacağı ehtimal olunduqda və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə öhdəlik kimi tanınır.

**l) Xarici valyutalar**

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında, xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici valyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır.

Balans hesabatı tarixinə xarici valyuta ilə olan monetar maddələr hesabat tarixinə məzənnədən istifadə etməklə yerli valyutaya çevrilir. Məzənnə fərqlərindən yaranan gəlir və xərclər Mənfəət və Zərər haqqında hesabatda əks olunur.

Cəmiyyət tərəfindən maliyyə hesabatlarının hazırlanması üçün hesabat dövrünün sonunda istifadə edilmiş məzənnələr aşağıdakı kimi olmuşdur.

1 USD = 1,7000 AZN
1 EUR = 2.0890 AZN
1 RUB = 0.0231 AZN

Xarici valyuta ilə olan qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

**m) Maliyyə alətləri**

Maliyyə aktivləri və ya öhdəlikləri mühasibat balansında yalnız maliyyə alətinin müqavilə müddəalarına tərəf olan kimi tanıyır.

İlkin tanınmadan sonra maliyyə aktivləri (ı) birbaşa mənfəət və zərərdə ədalətli dəyərlə əks olunan; (ıı) müddəti başa çatmış investisiyalar; (ııı) Kreditlər debitorlar; və (ıv) satış üçün sərəncamda olan maliyyə aktivləri kimi təsnifləşdirilir.

Müddəti başa çatmış investisiyalar, kreditlər və debitorlarda olduğu kimi qalıq dəyəri ilə əks olunur, effektiv faiz dərəcəsi ilə hesablanmaqla yaranan gəlir mənfəət və zərər haqqında hesabatda tanınır.

Balans tarixində maliyyə aktivinin və maliyyə aktivləri qrupunun qiymətdən düşməsini müəyyən etmək üçün onlar qiymətləndirilir.

Əgər aktivlər amortizasiya edilmiş dəyər ilə uçota alınıbsa, qiymətdəndüşmə, aktivin ilkin dəyəri və maliyyə aktivinin ilkin tanınmada tətbiq edilən həmin effektiv faiz dərəcəsi ilə hesablanmış nəzərdə tutulan gələcək nağd pul hərəkətinin diskontlaşdırılmış dəyəri arasındakı fərq kimi ölçülür. Lakin, maliyyə aktivlərinin ədalətli dəyərini müəyyən etmək mümkün deyilsə, və onlar ilkin dəyəri ilə uçota alınıbsa, qiymətdən düşmə zərəri maliyyə aktivini ilkin dəyəri və bu cür maliyyə aktivi üçün cari bazar mənfəət normasında hesablanmış gözlənilən gələcək pul vəsaitlərinin diskontlaşdırılmış dəyəri arasında fərq kimi müəyyən edilir.

Satış üçün mövcud olan maliyyə aktivlərin ədalətli dəyərindəki dəyişikliklərdən yaranan gəlir və xərclərin kapitalda tanınması halları istisna olmaqla gəlir və xərclər mənfəət və zərər haqqında hesabatda tanınır. Qeyd edək ki,silinmə zamanı kapitalda tanınmış gəlir və xərclər bölüşdürülməmiş mənfəətə köçürülür.

Maliyyə öhdəlikləri kimi xarakterizə olunan kreditor borcları ilkin olaraq ədalətli dəyəri ilə, daha sonra isə qalıq dəyəri ilə əks olunurlar.

**n) Nağd pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması məqsədi ilə nağd pul vəsaitləri və onların ekvivalentlərinə kassa, bank hesablarındakı pullar və hər hansı yetişmə dövrü üç ay və ondan daha az müddətədək olan və istifadəsinə məhdudiyyət qoyulmayan depozit hesabları aid edilir.

## 4. Torpaq, tikili və avadanlıqlar, Qeyri-maddi aktivlər

| | Binalar | Maşın və avadanlıqlar | Hesablama texnikası | Nəqliyyat vasitələri | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| *İlkin dəyər* | - | - | 648.86 | - | 31 097.92 | 31 097.92 |
| **1 yanvar 2020-ci il tarixə** | - | - | - | - | 31 097.92 | 31 097.92 |
| İl ərzində daxilolmalar | - | - | - | - | - | - |
| İl ərzində silinmələr | - | - | - | - | - | - |
| İl ərzində amortizasiya | - | - | - | - | 3 109.79 | 3 109.79 |
| **31 dekabr 2020-ci il tarixinə** | - | - | - | - | 27 988.13 | 27 988.13 |
| ***Toplanmış amortizasiya*** | - | - | - | - | - | - |
| **1 yanvar 2021-ci il tarixə** | - | - | - | - | 27 988.13 | 27 988.13 |
| İl ərzində amortizasiya | - | - | 7.02 | - | 2 798.81 | 2 798.81 |
| Silinmələr üzrə düzəlişlər | - | - | - | - | - | - |
| **31 dekabr 2021-ci il tarixinə** | - | - | 641.84 | - | 25 189.32 | 25 189.32 |
| ***Qalıq dəyəri*** **31 dekabr 2021-ci il tarix** | - | - | 641.84 | - | 25 189.32 | 25 189.32 |

| **5 . Torpaq, tikili və avadanlıqlara vəsait qoyuluşu** | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
|---|---|---|
| | **AZN** | **AZN** |
| | - | - |
| Kapital qoyuluşu | | |
| Quraşdırılası avadanlıqlar | - | - |
| Quraşdırılası avadanlıqlar | - | - |

| **6. Uzunmüddətli maliyyə qoyuluşu** | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
|---|---|---|
| | **AZN** | **AZN** |
| | - | - |
| Uzunmüddətli maliyyə qoyuluşu | - | - |

| **7. Sair uzunmüddətli aktivlər** | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
|---|---|---|
| | **AZN** | **AZN** |
| | - | - |
| Sair dövriyyə aktivləri | | |

| **8. Ehtiyatlar** | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
|---|---|---|
| | - | - |
| | - | - |
| | - | - |
| Mallar | - | - |
| Bitməmiş istehsal | - | - |
| Hazır məhsul | - | - |
| Sair ehtiyatlar və məsrəflər | - | - |
| Ehtiyatların daxilolma müddəti üzrə bölgüsü | - | - |
| | - | - |

| | | |
|---|---|---|
| **9. Ehtiyatlar alınıb** | | |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| 1 il ərzində | - | - |
| 2 ildən yuxarı | - | - |
| | | |
| | | |

| **10. Müştərilərə verilmiş kreditlər** | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
|---|---|---|
| Hüquqi şəxslərə verilmiş kreditlər | 100 000.00 | - |
| Hüquqi şəxslərə verilmiş kreditlər üzrə hesablanmış alınacaq faizlər – x.v. | - | - |
| Fiziki şəxslərə verilmiş q/m kreditlər – milli valyuta | 223032.36 | |
| Fiziki şəxslərə və fərdi sahibkarlara verilmiş q/m kreditlər – milli valyuta | 88 671.00 | 156 760 |
| F/Ş verilmiş kreditlər üzrə hesablanmış alınacaq faizlər – milli valyuta | 0.00 | 70 |
| F/Ş verilmiş q/m kreditlər – xarici valyutada | 15 196.74 | - |
| F/Ş verilmiş q/m kreditlər üzrə hesablanmış alınacaq faizlər – xarici val | - | - |
| F/Ş verilmiş u/m kreditlər – milli valyutada | 332 900.72 | 4 550 |
| F/Ş verilmiş u/m kreditlər üzrə hesablanmış alınacaq faizlər – milli val | - | - |
| F/Ş verilmiş u/m kreditlər – xarici valyutada | - | - |
| F/Ş verilmiş u/m kreditlər üzrə hesablanmış alınacaq faizlər – xarici val | - | - |
| Ehtiyatlar | 0.00 | - 3 271 |
| | **759 800.82** | **177 835** |

## Maliyyə hesabatlarına dair qeydlər, 31 dekabr 2021-ci il tarixdə bitən il üzrə

| | | |
|---|---|---|
| **11. Digər debitor borcları aktivlər** | | |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| Büdcədən alacaq | 4 863 | 4 863 |
| Malsatan və podratçılara verilmiş avanslar | - | - |
| Törəmə Müəssisələr üzrə | - | - |
| Gələcək dövrün xərcləri | - | - |
| Sair aktivlər | - | - |
| | - | - |
| **12. Pul vəsaitləri və onu ekvivalentləri** | 142 103.02 | 250 010 |
| | - | - |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| Milli valyutada bank hesabları | 213158.31 | 141 320 |
| Xarici valyutalarda bank hesabları | 28981.60 | 108 690 |
| | | - |
| **13. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | | |

| | | |
|---|---|---|
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| İlin əvvəlində qalıq | - 69 861.49 | - 66 281.00 |
| Təqdim edilib | - | - |
| İl ərzində mənfəət(zərər) | 52 270.98 | - 3 580.49 |
| İlin sonuna qalıq | - 17 590.51 | - 69 861.49 |
| | | |
| **14 Kreditor və digər borclar** | 2 318.41 | 13 963.13 |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| Malsatan və podratçılar təşkilatlar üzrə öhdəlik | - | - |
| Dövlət Sosial Müdafiə Fondu | - | - |
| İşçi heyəti ilə hesablaşma üzrə borc | - | - |
| Təsisçilərlə hesablaşmalar üzrə borc | - | - |
| Büdcəyə olan borclar | - | - |
| Sair kreditorlar | - | - |
| Digər öhdəliklər | 2 318.41 | 13 963.13 |
| | | |
| **15. Banklara və digər maliyyə institutlarına borclar** | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| | | |
| Alınmış kredit: İlin əvvəlinə qalıq | - | - |
| İl ərzində alınmışdır | - | - |
| İl ərzində geri qaytarılmışdır | - | - |
| Alınmış kredit : İlin sonuna qalıq | - | - |
| Kreditin cari hissəsi | - | - |
| O cümlədən uzunmüddətli qısamüddətli | - | - |
| | | |
| **16. Məqsədli maliyyələşmə** | | |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| İlin əvvəlinə qalıq | - | - |
| İl ərzində alınmışdır | - | - |
| İlin sonuna qalıq | - | - |
| **17. Əsas əməliyyat gəliri** | 114 936.43 | 29 283.43 |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| Faiz üzrə gəlirlər | 114 936.43 | 29 283.43 |
| Satış üzrə gəlirlər | - | - |

| | | |
|---|---|---|
| **18. Digər əməliyyat gəliri /(zərəri)** | 20 671.18 | 5 896.08 |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| Məzənnə dəyişməsindən gəlir/(zərər) | - | - |
| Kreditor borclarının silinməsindən | - | - |
| Sair gəlirlər | 20 671.18 | 5 896.08 |
| | | |
| **19. İnzibati xərclər** | **96 326.57** | **115 718.89** |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| Əmək haqqı və mükafatlar | 28 610.00 | 13 765.99 |
| Sosial sığorta üzrə xərclər | 5 398.38 | 2 674.01 |
| Xammal və material xərci | - | - |
| Təqdim edilmiş əsas vəsaitin dəyəri | - | - |
| İcarə xərcləri | 12 600.00 | 6 430.00 |
| Su və kanalizasiya xərcləri | - | - |
| Digər xərclər | - | - |
| Laboratoriya analiz və ekspertiza xərcləri | - | - |
| Elektrik xərcləri | 189.65 | - |
| Qaz xərcləri | - | - |
| Su və kanalizasiya xərcləri | 10.00 | |
| Marketinq-reklam xidməti haqqı | - | 280.00 |
| Sığorta xərclər | 61.80 | 31.71 |
| Digər xərclər | 26 062.40 | 11 081.38 |
| Bank xidməti xərcləri | 4 887.17 | 567.82 |
| Reklam xərcləri | 3 879.33 | |
| Təmir xərcləri | - | - |
| Faiz xərcləri | 33 792.91 | |
| Vergi xərcləri | - | 10.00 |
| Yanacaq xərci | - | - |
| Ezamiyyə xərcləri | - | - |
| Nəqliyyat xərcləri | - | - |
| Rabitə xərcləri | 833.80 | 806.91 |
| Mühafizə xərcləri | - | - |
| Amortizasiya (Köhnəlmə) | 2 805.83 | 3 109.79 |
| Gəlirdən çıxılmayan xərclər | - | - |
| **20. Maliyyə xərcləri** | - | - |
| | **31 Dekabr 2021-ci il** | **31 Dekabr 2020-ci il** |
| | **AZN** | **AZN** |
| Məzənnə fərqi xərcləri | - | - |
| Faiz xərcləri | - | - |
| | | |
| **21. İşçilərin sayı** | | |

| | 31 Dekabr 2021-ci il | 31 Dekabr 2020-ci il |
|---|---|---|
| İşçilərin sayı (ilin sonuna) | 4 | 4 |

**22.Hesabat tarixindən sonra baş vermiş hadisələr**

31 dekabr 2021-ci il tarixinə maliyyə hesabatlarında borc qalıqları aşağıdakı kimi olmuşdur.

*Vergilər üzrə.*31 dekabr 2021-ci il tarixinə cəmiyyətin vergilər üzrə kreditor borcu 0.00 manat olub.

*Sosial sığorta ayırmaları üzrə.*31dekabr 2021-cu il tarixinə cəmiyyətin sosial sığorta üzrə kreditor borcu 0.00manat olub.

*Əmək haqqı üzrə.* 31 dekabr 2021-ci il tarixinə cəmiyyətin əmək haqqı üzrə işçi heyətinə kreditor borcu 0.00 manat olub.

**23.Mənfəət vergisi**

Mənfəət vergisi hazırki maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uygun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakın, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır.Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifdə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| | 31 Dekabr 2021-ci il | 31 Dekabr 2020-ci il |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | - | - |
| Təxirə salınmış vergi üzrə | - | - |
| İl üzrə mənfəət vergisi xərci | - | - |

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20% (2021-ci il- 20%) qeydə alınır.

**24.Əlaqəli tərəflərlə əməliyyatlar**

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə - təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

**25.Risklərin idarə edilməsi**

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski bazar riski coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini tənin etməkdən ibarətdir.

***Kredit riski***

Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Cəmiyyətin pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

***Bazar riski***

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazada daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

***Faiz dərəcəsi riski***

Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar

qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**26.Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi**

**• Yeni və yenidən işlənmiş standartların tətbiqinin təsiri.**

Yeni və ya yenidən işlənmiş standartlar və onlara dair şərhlərin tətbiqinin 31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə Cəmiyyətin maliyyə vəziyyətinə və həmin tarixdə tamamlanan illər üçün əməliyyat nəticələrinə təsiri əhəmiyyətli dərəcədə olmamışdır.

**27.Hesabat tarixinidən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisə baş verməmişdir.

"REGİONAL" BOKT MMC ilə 01 mart 2022-ci il tarixdə bağlanmış 001/22 №-li müqaviləyə əsasən

**TƏHVİL QƏBUL AKTI**

Bakı şəhəri 28 mart 2022-ci il

Biz, aşağıda imza edənlər: İcraçı-Sərbəst auditor G.İ.Yusifova və Sifarişçi "**REGİONAL" BOKT MMC** direktor B.E.Cəbrayılovun şəxsində bu Aktı ona görə tərtib edirik ki, İcraçı tərəfindən 01 mart 2022-ci il tarixli 001/22 №-li müqavilədə nəzərdə tutulmuş işlər, yəni Sifarişçinin maliyyə hesabatları standartlarının tələblərinə uyğun tərtib edilmiş 01 yanvar 2021-ci il tarixdən 31 dekabr 2021-ci il tarixə qədər olan dövr üzrə maliyyə hesabtlarının əhəmiyyətlilik baxımından dürüstlüyü barədə rəy bildirmək məqsədi ilə Azərbaycan Respublikasında tətbiq olunan Beynəlxalq Audit Standartlarına müvafiq audit tam həcmdə yerinə yetirilmişdir.

Aktın doğruluğunu imzalarımızla təsdiq edirik:

İcraçı:
**Sərbəst auditor**
**G.İ.Yusifova**

Sifarişçi:
**"REGİONAL" BOKT MMC-nin**
**direktoru B.E.Cəbrayılov**

Məktub-öhdəlik

**"REGİONAL" BOKT Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbərliyinə**

Siz məndən 01 yanvar 2021-ci il tarixdən 31 dekabr 2021-ci il tarixədək olan dövrdə təqdim olunmuş maliyyə hesabatlarının auditini keçirməyi xahiş etmisiniz. Hazırkı məktub əsasında auditin keçirilməsinə razılıq verdiyimizi və həmin tapşırığı qəbul etdiyimizi bildiririk. Audit maliyyə hesabatlarına dair rəyin bildirilməsi məqsədilə aparılacaqdır.

Audit prosesi beynəlxalq audit standartlarına müvafiq aparılacaqdır. Nəzərdə tutulan standartlar etik normalara riayət etməklə audit prosesinin maliyyə hesabatlarında əhəmiyyətli səhvlərin olub-olmadığını müəyyən etmək üçün əsaslı təminat əldə etmək məqsədilə planlaşdırılmasını və icrasını tələb edir. Bizim audit işimiz test əsasında yoxlamadan, hesabları və maliyyə hesabatlarını təmin edən sübutların əldə edilməsindən ibarət olacaqdır. Seçilmiş prosedurlar maliyyə hesabatlarında faktın fırıldaqçılıq və ya səhv olması ilə əlaqədar əhəmiyyətli səhvin olması riskinin qiymətləndirilməsi daxil olmaqla, auditorun mühakiməsindən asılıdır. Eyni zamanda, auditə rəhbərlik tərəfindən istifadə edilən uçot qaydalarının, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının qiymətləndirilməsi daxildir.

Müəyyən mühasibat və daxili nəzarət sisteminin məhdudiyyətləri ilə birlikdə, auditin test mahiyyəti və bir sıra digər daxili məhdudiyyətlərinin olması ilə əlaqədar əhəmiyyətli səhvlərin aşkar edilməməsi üzrə labüd risk mövcuddur.

Riskin qiymətləndirilməsi zamanı müəssisənin daxili nəzarətinin səmərəliliyinə dair rəyimizi bildirmək üçün deyil, müəyyən vəziyyətdə müvafiq hesab edilən audit prosedurlarının planlaşdırılması üçün biz müəssisənin maliyyə hesabatlarının hazırlığına uyğun daxili nəzarət formasını nəzərə alırıq. Bununla belə, maliyyə hesabatları üzərində daxili nəzarətin planlaşdırılması və tətbiqində maliyyə hesabatlarının auditi zamanı diqqətimizi cəlb edəcək hər hansı nöqsanlar barədə sizi ayrıca məktubla təmin edəcəyik.

Nəzərinizə çatdırırıq ki, maliyyə hesabatlarının beynəlxalq standartlarına müvafiq müəssisənin maliyyə mövqeyi, maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkətinə dair maliyyə hesabatlarının hazırlanmasına dair cavabdehlik müəssisə rəhbərliyinin üzərinə düşür. Bizim auditor hesabatı rəhbərliyin maliyyə hesabatlarını tətbiq olunan maliyyə hesabatlarının prinsiplərinə müvafiq hazırlanması və təqdim edilməsi üzrə cavabdehlik daşımasını aydınlaşdıracaqdır və rəhbərliyin öhdəlikləri aşağıdakılardır:

- Fırıldaqçılıq və təhrif ilə əlaqədar səhvlərdən uzaq maliyyə hesabatlarının hazırlanmasına müvafiq daxili nəzarətin planlaşdırılması, yerinə yetirilməsi və qorunub saxlanması.
- Müvafiq uçot siyasətlərinin seçilməsi və tətbiqi.
- Müəyyən hallarda münasib hesab edilən mühasibat qiymətləndirməsinin aparılması

Audit prosesinin bir hissəsi olaraq biz rəhbərlikdən auditlə bağlı edilmiş təqdimata dair yazılı razılıq tələb edəcəyik.

Sizin işçi heyətinizlə əməkdaşlıq etməyə hazırıq və onların auditlə bağlı lazım olan bütün hesabatları, sənədləşmələri və sair məlumatı təqdim edəcəklərinə inanırıq.

Ödəniş haqqı və formasına dair məlumat müqavilə əsasında müəyyənləşdiriləcəkdir.

Maliyyə hesabatlarının auditinin təşkilinin sizin razılığınıza müvafiq olmasını təsdiq etmək üçün verilən məktuba əlavə edilən nüsxəni imzalamağınızı və geri qaytarmağınızı xahiş edirik.

**Sərbəst auditor:** **G.İ.Yusifova**

Azərbaycan Respublikası Auditorlar Palatası ✪ Chamber of Auditors of the Azerbaijan Republic
Yusifova Gülnarə İsfəndiyar qızı
Sərbəst auditor
Independent auditor

**"REGİONAL" BOKT** Məhdud Məsuliyyətli Cəmiyyətin adından təsdiq edilmişdir:

**Direktor:** **B.E.Cəbrayılov**

AZƏRBAYCAN RESPUBLİKASI
Bank olmayan kredit təşkilatı
REGİONAL
Non-banking credit institution
AZERBAIJAN REPUBLIC

01 mart 2022-ci il

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"REGİONAL" BOKT MMC-nin rəhbərliyinə**
**Müsbət rəy**

Mən " **REGİONAL"** MMC-nin (Bundan sonra - "Cəmiyyət") 01 yanvar 2021-ci il tarixdən 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir .

**Müsbət rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o, BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffaflıq nümayiş etdirirəm.

**Sərbəst auditor**
**Yusifova Gülnarə İsfəndiyar qızı**

**Bakı, Azərbaycan Respublikası**
**28 mart 2022-ci il**
***Lisenziya: SA/376, 04.08.2017***